9 Noyabr Dövlət Bayrağı Günüdür

# Zəfər zirvəsinə ucalan bayrağım!




*Üçrəngli bayrağın kölgəsində mən*
*Qaraca torpağı Vətən görmüşəm.*
*Bayraq mənliyimdir, bayraq kimliyim,*
*Bayraq-öz yurduma öz hakimliyim.*

Böyük istiqlal şairimiz Bəxtiyar Vahabzadənin poetik vüsətlə söylədiyi kimi, bayraq milli mənlikdir, ölkə namusdur, yurd şərəfidir. Bayraq həm də millətin öz dövlətinin olması göstəricisidir. Bayraq Vətən deməkdir. Vətən uğrunda döyüşmək isə elə bayraq uğrunda döyüşmək deməkdir.

Araşdırıcıların fikrincə, "bayraq" sözü türkcə mizraq mənasına gələn "batrak" sözündəndir. Belə ki, keçmişdə türklərdə torpağa sancılan mizraqın üzərinə xanədanlığı təmsil edən rənglərdə parçalar və iplər asılırmış. Mizraqın ucuna isə qızıl və ya digər dəyərli metallardan xaqanlıq əlaməti taxılırmış. Torpağa batırılan mizraq mənasında bayraq zamanla ölkəyə, yurda sahibliyi əks etdirən milli rəmzə çevrilmişdir. Etimologiya lüğətinə görə isə, bayraq sözü qədim türk dillərində "hündür" və "dağ" mənalarını əks etdirən bayır sözü ilə bağlıdır, mənası "yuxarı qaldırılan" deməkdir.

Azərbaycanın üçrəngli bayrağının tarixi Xalq Cumhuriyyəti ilə bağlıdır. İlk dəfə 1918-ci il noyabrın 9-da Nazirlər Şurasının yerləşdiyi binada üçrəngli bayrağımız rəsmi dövlət atributu elan edilmiş və qaldırılmışdır. Bayrağın üçrəngli olması ideyası Əli bəy Hüseynzadəyə məxsus olmuşdur. Onun "Türkləşmək, islamlaşmaq, çağdaşlaşmaq" ideyası bayrağımız üzərində üç müxtəlif rəngdə öz əksini tapmışdır. Belə ki, bayrağımızdakı mavi rəng türk mənşəli olduğumuzu, qırmızı rəng müasir və demokratik cəmiyyəti, yaşıl rəng isə islam mədəniyyətini əks edirir.

Təəssüf ki, həmin dövrdə üçrəngli bayrağımızın ömrü az olmuş, Xalq Cumhuriyyərinin süqutu ilə o, 1920-ci ilin may ayında parlament binsının üzərindən endirilmişdir. Lakin M.Ə.Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməz" şüarı on illər boyu qəlblərdə yaşamış, müstəqil Azərbaycan Respublikası üçün bir mübarizə çağırışı rolunu oynamışdır. Sovet imperiyasının süqutu ərəfəsində, Azərbaycann müstəqillik əldə etməsindən bir qədər əvvəl– 1990-cı il noyabrın 17-də müstəqil Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Xalq Cumhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının müstəqilliyimizin bərpası anlamında dövlət bayrağı elan edilərək ucaldılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında qaldırdığı vəsatətin nəticəsi olaraq, 1991-ci il fevralın 5-də "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə" qəbul edilmiş və mavi, qırmızı, yaşıl zolaqlı, ay-ulduzlu bayraq Azərbaycanın dövlət bayrağı olmuşdur.

2009-cu ilin 17 noyabrında isə ulu öndərin ideya və əməllərinin ən sadiq davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla hər il noyabr ayının 9-u ölkəmizdə Dövlət Bayrağı Günü elan edilmişdir. 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının açılış mərasimində Prezident İlham Əliyev bayraqla bağlı möhtəşəm çıxışında demişdir: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır".

İki il əvvələ qədər hansı Azərbaycan vətəndaşından "ən böyük arzun nədir?"– deyə soruşulanda, birmənalı şəkildə deyirdi: "O gün olsun ki, bayrağımız Qarabağda – Şuşada dalğalansın". Nəhayət, Prezident, Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə, rəşadətli ordumuzun gücü ilə 30 illik arzularımız gerçək oldu. 44 günlük Vətən müharibəsi dövründə işğaldan azad edilmiş torpaqlarımıza müstəqilliyimizin rəmzi olan üç rəngli, aylı-ulduzlu bayrağımız qəhrəman əsgərlərimiz tərəfindən sancıldıqca bizim də qəlbimiz fərəhlə doldu.

Bu gün üçrəngli bayrağımız əzəli və əbədi torpaqlarımız olan Qarabağın da səmalarını bəzəyir. Bu gün Azərbaycan torpaqlarından zəfər qoxusu gəlir. İllərdir ki, boynu bükük olan xarıbülbül öz qələbə ətrini bütün Azərbaycana yayır.

Prezident İlham Əliyevin 2020-ci il 3 dekabrda imzaladığı sərəncama əsasən, hər il noyabrın 8-i ölkədə "Zəfər Günü"nün qeyd edilməsi qərara alındı. Bu möhtəşəm Zəfər tarixinin 8 noyabrda qeyd edilməsi də təsadüfi deyil– həmin gün müharibənin taleyini həll edən Qarabağın tacı, Azərbaycan mədəniyyət paytaxtı Şuşa şəhərinin azad olunması çağdaş tariximizə qızıl hərflərlə yazıldı. Rəşadətli ordumuzun mərd igidləri Şuşa döyüşlərində bütün dünyanı lərzəyə salacaq yeni bir salnamə yazdılar.

Böyük qələbəmizin təcəssümü olan Zəfər günü ilə Bayraq gününün dalbadal olaraq qeyd edilməsi milli təqvimizdə xoş bir təsadüf oldu. Şanlı zəfərimiz nəticəsində üçrəngli bayrağımız artıq 30 ilə yaxın həsrət qaldığı torpaqlara qovuşdu, Qarabağ diyarını öz səkkizguşəli ayulduzu ilə bəzədi.

Artıq ikinci ildir ki, müqəddəs bayrağımız Azərbaycanın dilbər guşəsi olan Qarabağda, Zəfər zirvəsi Şuşada dalğalanır. Şuşa şəhərinin azad olunduğu "Zəfər günü" və "Bayraq günü" ortaq təntənələrlə qeyd olunur. İnanırıq ki, Azərbaycan xalqı müharibə dövründə olduğu kimi, bundan sonra da bir bayraq altında həmrəy, bir yumruq kimi möhkəm olacaq. Bu birlikdən qorxan mənfur düşmən bir daha torpaqlarımıza göz dikə bilməyəcək.

**Nuridə ƏLİZADƏ,**
**hüquqşünas**